**Aydan Fərman qızı ASLANOVA**
Bakı Avrasiya Universiteti, müəllim
E-maıl: aydan.aslanova.1991@bk.ru

# AQROEMAL SEKTORUNA İNVESTİSİYA QOYULUŞLARI: MÖVCUD VƏZİYYƏT VƏ PRİORİTETLƏR

**Xülasə**

Aqroemal sektorunda emal proseslərinin səmərəli şəkildə maliyyələşdirilməsi və investisiya mexanizmlərinin gücləndirilməsi müasir dövrdə iqtisadiyyatın tədqiqat müstəvisində olan əsas məsələlərdən biridir. Aqrar-emal komplekslərinin investisiya cəlbediciliyi problemləri və mövcud problemlərin həlli yollarının optimallaşdırılması qlobal-maliyə krizislərinin fonunda aktual olaraq qalmaqdadır. Məqalədə aqrar-emal sahələrində investisiya qoyuluşunun həcmi sahəsində inkişaf etmiş dövlətlərin təcrübəsindən yararlanaraq təsirli idarəetmə mexanizmlərinin yaradılması və həyata keçirilməsi üçün təhlillər aparılmışdır. Aqrщemal sahələrində investisiya qoyuluşunun həcmi və strukturunun təhlili proseslərinə sistemli yanaşmanın vacibliyi əsaslandırılmış, maliyə təminatının dayanıqlığını planlaşdırmaq və proqnozlaşdırmaq istiqamətində eyniləşdirmələr və müqayisəli təhlillər aparılmışdır. Etibarlı investisiya kanallarını cəlb etmək üçün Azərbaycan Respublikasında həyata keçirilən inkişaf strategiyalarının dövrün tələblərinə və qlobal çağırışlara uyğun şəkildə hazırlanmasının və həyata keçirilməsinin istiqamətləri göstərilmişdir.

**Açar sözlər:** investisiya, iqtisadiyyat, sənaye, emal, xidmət, maliyyə.

**JEL:**F02
**UOT:**336
**DOI:** https://doi.org/ 10.54414/XXPZ3317

**Giriş**

Qloballaşma prosesinin intensiv xarakter aldığı dünyada iqtisadiyyatın bütün sahələrində innovativ proseslərin keyfiyyətcə yüksəlməsi elmi-texniki yeniliklərin sürətlə yayılması və onların istehsal sektorlarına tətbiqi aqrar- emal kompleksinin də inkişafına təsir edən mühüm faktorlardandır. Qeyd etmək lazımdır ki, belə bir dinamik xarakterli inkişafın fonunda Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafına dair konsepsiyaların əsas hədəfi dünya ölkələrinin iqtisadi inkişaf sürəti ilə uzlaşmaqdır. Azərbaycan iqtisadiyyatının ilk növbədə neft və qaz amilindən asılılığını azaltmaq bununla da qeyri-neft sektorunun, eləcə də onun əsas tərkib hissəsi olan aqroemal sahəsinin yüksək səviyyəli inkişafına nail olmaq müasir iqtisadi konsepsiyaların əsas arqumentidir. İqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, eləcə də aqrar sahənin əsaslı inkişafını təmin etmək məqsədilə son illərdə Azərbaycanda geniş miqyaslı islahatlar həyata keçirilir. Belə ki, kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin artırılması aqrar sahə üzrə strateji hədəflərin keyfiyyətcə yeni mərhələyə keçməsinə təkan vermişdir.

**Aqroemal sahəsində investisiya mühitini formalaşdıran amillər.** Aqroemal kompleksində investisiya fəaliyyətinin səmərəliliyinin təmin edilməsi istiqamətləri tədqiq olunarkən müəyyənləşmişdir ki, ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi aqroemal müəssisələrinin ixrac potensialının səviyyəsindən asılıdır. Aqrar sahənin yüksək templə inkişafına nail olmaq məqsədilə iri fermer təsərrüfatlarının yaradılması,aqroparkların və digər emal infrastrukturunun inkişafına xüsusi diqqət yetirilməsi, böyük quruculuq işlərinin həyata keçirilməsi üçün münbit şəraitdir. Bundan başqa, 2020-ci ildə 44 günlük vətən müharibəsi nəticəsində erməni faşistlərinin işğalından azad olunmuş ərazilərdə nəhəng quruculuq işlərinin və ciddi aqrar islahatların həyata keçirilməsinə də təsir edən əsas faktorlardan biridir. Aqro- emal komplekslərinin inkişafını, kənd

təsərrüfatının məqsədyönlü şəkildə təkmilləşdirilməsini reallaşdıran əsas amillərdən biri də bu sahə üzrə dövlət qanunvericilik strukturlarının hüquqi dəstəyidir[2,s.115]. Belə ki, rəqabətə davamlı kənd təsərrüfatı məhsullarının emalı komplekslərinin genişləndirilməsi, o cümlədən səmərəli investisiya resurslarına əlçatanlığın təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Aqrar-emal kompleksinin inkişafına "Regionların sosial iqtisadi inkişaf proqramı", "Sənaye və xidmət məhəllələrinin yaradılması" və bir sıra mühüm dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi də bu sahənin uğurlu inkişafını təmin edir.

Respublika əhalisinin bir sıra ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi aqrar-emal sahəsinin inkişafının əsas göstəricilərindəndir. Bütün bunlara baxmayaraq, ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi 75-85 faiz arasında dəyişməkdədir.

Aqrar emal kompleksinin investisiya təminatı və onun həcmi, əsasən bu sahənin hər hansı bir sektorunun cəlbediciliyindən asılıdır. Aqrar sənaye sahələrinin inkişaf prioritetləri əhalinin ərzaq və digər aqro-emal məhsulları ilə təmin etməkdir. Bu baxımdan aqrar-emal sahələrinin investisiya təminatı və onun həcmi fərqli aktuallığa malikdir. Müxtəlif ölkələrdə inkişaf mərhələləri birbirindən fərqli olsa da aqrar emal sahəsinin rəqabətə dayanıqlı fəaliyyətini təmin etmək səviyyəsi sahəyə investisiya yatırımının keyfiyyətindən asılı olaraq qalmaqdadır[4, s.65].

**Cədvəl 1**

**Aqrar sahədə innovasiyalı inkişaf mühitini formalaşdıran amillər**

| **İnnovasiyalı inkişaf mühitini şərtləndirən daxili amillər** | **İnnovasiyalı inkişaf mühitini şərtləndirən xarici amillər** |
|---|---|
| Marketinq tədqiqatları | Risklərin səviyyəsi (siyasi-iqtisadi, hüquqi, iqtisadi-institusional) |
| İdarəetmədə kreativlik və işçi heyətin əqli potensialın reallaşması | Daxili istehsala dövlət himayəsi |
| İnkişafın strateji prioritetləri | İnvestisiyaların mühafizəsi səviyyəsi |
| Mövcud maliyyə vəziyyəti | İnnovasiyaların təşviqi tədbirlərinin səmərəliliyi |
| Maliyyə potensialı | İstehsal – texnoloji innovasiyalar |
| İstehsal proseslərinin yeniliklərə həssaslığı | Bank faizi dərəcəsi |
| Müəssisənin imici | İnflyasiya səviyyəsi |
| Müəssisənin tarixi | Amortizasiya siyasəti |

**Mənbə:** Nəzəri materiallar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Aqroemal kompleksinin investisiyaya olan tələbatını qiymətləndirmək digər sahələrə nisbətən daha real imkanlar çərçivəsində həyata keçirilir. Belə ki, insanların müxtəlif ərzaq məhsullarına olan tələbəatını müəyyənləşdirmək, onların digər tələbatlarına nisbətdə daha asan müəyyənləşir. İnvestisiya həcminin, eləcə də keyfiyyətinin asanlıqla müəyyənləşdirilməsi aqrar-emal sahəsinin səmərəli inkişafına təkan verən investisiya təminatını asanlaşdırır. Dünya miqyasında əhalinin ərzaqla təmin edilməsi səviyyəsi beynəlxalq təşkilatlar tərəfindən aparılan hesablamalara əsasən müəyyənləşdirilir. Beynəlxalq təşkilatların hesablamaları aqro-emal sahəsinə yatırılan investisiyanın həcminin artırılmasını tələb edir. Belə ki, dünyada 2030-cu ilə qədər hədəflənmiş prioritet məsələlərdən biri də yoxsulluq və aclığa son qoymaqdır ki, bundan ötrü hər il əlavə 265 milyard ABŞ dolları həcmində investisiya aqrar-emal sahəsinə yönləndirilməlidir [5, s.72].

Aqroemal sektorunda investisiya proseslərində qeyri-aşkar əməliyyatlar və risk amilləri arasında düz mütənasiblik mövcuddur. Aqrar sahədə investisiyalaşdırma riskli fəaliyyət sahəsi olduğuna görə

bir çox hallarda aqroemal sahələrinin inkişaf layihələrinin həyata keçirilməsi üçün vəasit ayrılması proseslərində probelmlər yaranır.

Aqrar-emal sahəsində investisiya fəaliyyətinin səmərəliliyinin təmin edilməsi və yatırılan investisiyanın həcmini müəyyənləşdirərkən ortaya çıxan əsas məqamlardan biri də kənd ərazilərində yaşayan əhalinin gəlirlərinin nisbətən az olması və bu səbəbdən investisiya səmərəliliyinin qlobal səviyyədə sektorlararası fərqlərinin azaldılmasında problemlər yaranır. Aqro-emal sahələrində səmərəli investisiya təminatını və onun həcmini şərtləndirən əsas amillərdən biri də qlobal səviyyədə investorların aqrar sahəyə marağının arzuolunan səviyyədə olmaması ilə əlaqədardır. Aqrar emal sahələrinə investisiya yatırılmasının səmərəliliyini şərtləndirən amilərdən biri də təbii iqlim şəraitindən asılı olmasıdır [6, s.67].

Qrar-emal sahələrinin balanslı şəkildə inkişaf etdirilməsi dünya iqtisadiyyatının strateji məsələlərindəndir. Belə ki, qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı problemlər demək olar ki, bütün dünya dövlətlərinin və beynəlxalq təşkilatlarının diqqət mərkəzində olan məsələlərdən hesab olunur. Ərzaq təhlükəsizliyi probleminin qloballaşması aqrar-emal kompleksində davamlı və dayanıqlı inkişafının təmin etmək üçün böyük miqdarda investisiyalara ehtiyac duyur və onun həcminin artmasınıtələb edir. Bu məqsədlə aqrar-emal sahəsində investisiyaların cəlb edilməsi üçün səmərəli mühit və relevant infrastruktur formalaşdırılmalıdır. Hər hansı bir ölkənin ərzaq təminatı ilə bağlı problemlərinin həllində aqrar -emal müəssisələri əhəmiyyətli rol oynayır. Qeyd etmək lazımdır ki, aqrar emal komplekslərinin inkişaf etdirilməsi və investisiya cəlbediciliyinin artırılması hər bir dövrdə öz aktuallığını saxlamaqdadır [1, s.220].

Son dövrlərin qlobal iqtisadi təsirindən yaranan ərzar problemi getdikcə dərinləşməkdədir. Qlobal ərzaq probleminin həll edilməsi istiqamətində sistemli və müntəzəm xarakterli tədbirlərin həyata keçirilməsi, həmçinin aqrar məhsulların istehsalı və bu istehsal sahələrinə genişləndirilməsində investisiya fəaliyyətinin həcminin artırılması sahənin inlişafı üçün əsas faktordur.

Aqroemal komplekslərinin öz fəaliyyətlərinin qlobal çağırışlara uyğun şəkildə təşkil etməsi həmçinin onların investisiya fəaliyyəti üçün inkişaf strategiyalarının olması vacib nüanslardandır. Belə ki, bu sahəyə daxil olan hər bir müəssisənin investisiya cəlbediciliyi və onun həcmi dərindən təhlil olunmalı real şəkildə qiymətləndirilməlidir. İnkişaf etmiş ölkələrin aqrar emal komplekslərinə investisiyalar yatırmasında, subsidiyalar verilməsində, eləcə də dotasiyaların ayrılmasında işlək bir mexanizm müşahidə olunur və demək olar ki, bu proseslər iqtisadi cəhətdən inkişaf etmiş ölkələr üçün səciyyəvi xarakter daşıyır. Qeyd etmək lazımdır ki, bütün tədbirlərə baxmayaraq aqrar-emal sahələrinin balanslı şəkildə inkişaf etdirilməsi problemləri hələ də mövcüddur. Aqrar emal komplekslərinə daha çox maliyənin yönəldilməsində və investisiyaların cəlbedilməsində yaranan çətinliklər sahə üzrə problemlərin aradan qaldırılmasına maneə olur. Yüksək keyfiyyət standartlarına cavab verən məhsulların istehsalını təmin edəbiləcək aqrar-emal komplekslərinin təşkili və onlara yatırılan investisiyanın həcminin artırılması dünya ölkələrinin inkişaf strategiyasının əsas prinsiplərindəndir [8].

**Aqroemal sahəsinə investisiya qoyuluşlarının dinamikasının təhlili.** Aqroemal sahəsinə investisiyaların cəlbi və onun həcminin müəyyənləşdirilməsi prinsipləri və meyarları bir çox amillərdən asılıdır. Ümumiyyətlə, investisiyaların cəlb edilməsi və istifadəsi həm aqrar emal prosesinin spesifik xüsusiyyətlərindən, risklərdən, təbiət və iqlim amillərindən, fors-major hallardan asılıdır. Hazırda aqrar emal komplekslərinin inkişaf etdirilməsi və bu məqsədlə sahənin investisiyalaşdırılması, nisbətən intensiv fazaya keçmişdir. Aqrar-emal sahələrinin kreditləşməsinin daha səmərəli mexanizmlərin yaradılması və investisiya cəlbediciliyin artırılması, maliyə təminatının gücləndirilməsi üçün səmərəli fəaliyyət mexazimlərinin hazırlanması və həyata keçirilməsi vacib faktorlardandır. Bir çox ölkələrdə müəssisələrdə aqrar emal komplekslərinin investisiya mexanizmlərinin gücləndirilməsi dövlətin investisiya siyasətinin əsas prioritetlərindəndir.




**Qrafik 1.**1990-2023-cü illər aralığında Azərbaycan iqtisadiyyatına və kənd təsərrüfatına investisiya qoyuluşlarının dinamikası.

**Mənbə:** www.stat.gov.az-ın məlumatları əsasında tərtib olunmuşdur.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyatın bütün sahələri o cümlədən kənd təsərrüfatı və aqrar sahənin inkişafı artan xətt üzrə yüksəldi. Aqrar- emal sektorunun da strukturunun təkmilləşdirilməsi məqsədi ilə həyata keçirilən müstəqil siyasətin formalaşdırılması həm ənənəvi inkişaf xüsusiyyətləri ilə yanaşı, həm də mövcud reallıqları nəzərə almağa başladı. Qeyd etməliyik ki,  Azərbaycan Respublikasında kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi 4779,5 min hektardır. Respublikada torpaq islahatlarının aparılması və ondan səmərəli istifadənin həyata keçirilməsi ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Zəngin liderlik təcrübəsinə malik olan Ümumilli Lider Heydər Əliyev torpaq islahatları aparmaqla Azərbaycanda kənd təsərrüfatının inkişafına nail oldu, eləcə də aqrar emal sektorunun inkişafında təkan verən fəaliyyət istiqamətlərinin təməlini qoydu. Mükəmməl qanunvericilik bazasının yaradılması və eləcə də islahatların aparılması kənd təsərrüfatının, aqrar emal sektorunun inkişafında əsas faktora çevrildi. 1996-ci il 16 iyul tarixində qəbul edilmiş "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun əsas prinsipləri yeni torpaq mülkiyyəti formalarınını yaratmaq ölkə əhalisinin maddi rifahını və ərzaq təminatını yaxşılaşdırmaqdan ibarət idi. "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası qanunu (7 may 1999-cu il) torpaq islahatlarının aparılması üçün hüquqi normativ əsasları müəyyənləşdirdi. Bu islahatlar nəticəsində Azərbaycan Respublikasında pay torpaqlarının verilməsinə start verildi ki, bu da öz növbəsində aqrar-emal sahələrinin fəaliyyətində mühüm irəliləyişlərə və kənd təsərrüfatının bütün sektorlarına yatırılan investisiyaların həcminin artmasına  səbəb oldu. [9]  Qəbul olunmuş qanunların həyata keçirilməsi Azərbaycanda  bir sıra mühüm aqrar məhsulların daxili bazar hesabına təminatına həyata keçirtdi. Bununla da aqrar məhsullar üzrə təminatın idxaldan asılılığı azaldı.




***Qrafik 2***. 2000-2023-ci illərdə kənd təsərrüfatına investisiya qo-yuluşlarının istiqamətlər üzrə artımı (müqayisəli qiymətlərlə, dəfə)

***Mənbə:*** www.stat.gov.az-ın məlumatları əsasında tərtib olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası özünün iqtisadi inkişaf modelini təkmilləşdirərək və aqroemal sahəsi üzrə davamlı kompleks tədbirlər həyata keçirməkdədir. Həmin tədbirlər əsasən ölkə iqtisadiyyatın diversifikasiyalaşdırılmasına və neftdən asılılığın azaldılmasına istqamətlənir. İqtisadiyyatın bütün sahələrində aqrar-emal sektorunun inkişafı üçün konseptual yanaşmalar və yeni hədəflər demək olar ki, 2016-cı il 6 dekabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır. Bununla da iqtisadiyyatın müxtəlif sektorlarının strateji hədəfləri və hər bir sahənin inkişaf perspektivində prioritet məqsəd və vəzifələri müəyyənləşdirildi. Strateji sənəddə aqrar sahənin inkişaf etdirilməsi və rəqabət qabiliyyətli aqroemal sektorunun yaradılmasına xüsusi əhəmiyyət verilmişdir.

Məlum olduğu kimi, aqroemal sektorunun inkişafı üçün qarşıya qoyulan vəzifələri həyata keçirmək böyük miqdarda investisiya resursları tələb edir. Bu sahəyə investisiyaların cəlbi nəticəsində regionlarda "Aqroparklar şəbəkəsi"nin sürətli şəkildə formalaşdırılması həyata keçirildi. Qısa zaman ərzində bu aqroparkların sayının sürətlə artması strateji planın hədəfi idi. Bu,həm də aqroemal sektoruna investisiyaların həcminin artırılması istiqamətində xüsusilə əhəmiyyət daşıyır. [10].

Bildiyimiz kimi, hər bir sahədə olduğu kimi aqroemal sahəsində də investisiya cəlb edimэsi üçün əlverişli mühit yaradılmalıdır. Burada investisiyaların cəlbini labud edən bir sıra şərtlər vardır ki, onları aşağıda göstərilən arqumentlərlə əlaqələndirmək olar:

1.Aqrar emal komplekslərinin investisiyalara olan tələbatının əsaslandırılması;

2. İnvestisiya tələbatlarının sistemli şəkildə planlaşdırılması;

3. İnvestor kompaniyalarla sıx əlaqələrin yaradılması;

4. Elmi cəhətdən əsaslandırılmış, tədqiq olunmuş investisiya layihələrinin reallaşdırılması.

Qeyd etdiyimiz arqumentlər aqrar-emal sahədə investisiyaların cəlbini və həcminin artmasının səmərəli şəkildə həyata keçirilməsini şərtləndirən amillərdəndir.

"Kənd təsərrüfatı kooperasiyası haqqında" qanunun qəbulu (2016-cı il 14 iyun) aqroeemal komplekslərinin inkişaf etdirilməsi və bu sahəyə investisiya cəlbediciliyinin yüksəlməsinə şərait yaratmışdır. Lakin, qeyd etməliyik ki, investisiyaların həcmi struktrunda aqrar-emal komplekslərinin payı aşağı səviyyədədir. Respublikada aqrar-emal komplekslərinə investisiyaların cəlb edilməsi və bu sahədə səmərəliliyin təmin edilməsi dövlətin investisiya siyasətinin strateji vəzifələrindən biridir. İnvestisiya səmərəliliyinin təmin edilməsi üçün idarəetmə mexanizmləri köklü şəkildə təkmilləşdirilməli, xarici investisiyaların cəlb olunması istiqamətində maneələrin aradan qaldırılması, şərtlərin yüngülləşdirilməsi əsas amillərdən biridir.

Son dövrlərdə Azərbaycanda aqrar-emal komplekslərində maliyə mexanizmlərinin təkmilləşdirilməsi və bu xidmətlərin çeşidinin genişlənməsi diqqət mərkəzindədir. Bu məqsədlə yaradılan "Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi"nin əsas məqsədi texnikanın və damazlıq heyvanların güzəştli şərtlərlə satışını həyata keçirmək, güzəştli şərtlərlə kreditlər vermək və aqrar sahəyə investisiya cəlbini stimullaşdırmaqdan ibarətdir. Etibarlı sığorta xidmətinin təşkili aqrar-emal komplekslərində investisiya fəaliyyətinin səmərəliliyini təmin edən əsas amillərdən sayılır. "Aqrar sığorta haqqında" qanunun qəbul olunması (27 iyun 2019-cu il) aqroemal sahəsində risklərin idarə olunması mexanizmlərinin işlənilməsinə və investisiya cəlbediciliyini artırılmasına real zəmin yaratmışdır.

**Nəticə**

Aqrar-emal sahəsində investisiya fəaliyyətinin səmərəliliyinin təmin edilməsi istiqamətləri təhlil olunarkən müəyyənləşmişdir ki, sahə üzrə yeni yanaşmaların formalaşdırılması eləcə də, dünya təcrübəsinə uyğun şəkildə məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanması tələb olunur. İnvestisiya fəaliyyətinin səmərəliliyinin təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. Qlobal maliyyə investisiya çağrılışlarına və aqroemal sektorunda müasir tendensiyalara uyğun olaraq, idarəetmə mexanizmlərini təkmilləşdirmək;

2. Azərbaycanda aqroemal sektorunun investisiyala.dırılması üçün cəlbedici mühit yaratmaq, investisiya fondları formalaşdırmaq, beynəlxalq səviyyədə uğurlu investisiya həyata keçirən şirkətlərin və investorların respublikamıza cəlb edilməsi istiqamətində əsaslı tədbirlərin həyata keçirilməsi;

3. Aqroemal müəssisələrinin investisiyalara və maliyyə resurslarına əlçatanlığını təmin etmək məqsədilə ölkədə səmərəli maliyyə-kredit münasibətlərini formalaşdırmaq;

4. Aqroemal sektoruna investisiyaların cəlbedicilik səviyyəsini yüksəltmək məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi və müvafiq qanunların icrasına dövlət nəzarətinin həyata keçirilməsi və s.

Hesab edirik ki, göstərilən və digər uyğun tədbirlərin reallaşdırılması ölkəmizin aqroemal sənayesində qısa müddətdə əhəmiyyətli irəliləyişlərin baş verməsinə səbəb ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Eyvazova,N.K.(2017).Aqrar sahənin sosial-iqtisadi inkişafinda məqsədli proqramlarin rolu. *Akademik Tarih ve Düşünce Dergisi*, *4*(11), 217-224.
2. Fətəliyeva, A. X., Pənahov, H. R. Aqrar sahədə sahibkarliğa dövlət dəstəyinin iqtisadi mexanizmləri və əsas istiqamətləri. *İqtisadi və Siyasi Elmlər Jurnalı*, 115.
3. Akbarov, E. H. (2021). The directions for improvement of commodity structure of agricultural export in Azerbaijan. *Economic and Social Development: Book of Proceedings*, 652-659.
4. Huseynov, T. F., Huseynov, F. T. Directions of securing sustainable development based on innovation processes in the agro-industry. "Kənd təsərrüfatının iqtisadiyyatı" jurnalı - № 4 (38), 2021
5. Alizada, F. The necessity of economic diversification of Azerbaijan: evaluation of development in tourism, agriculture, and logistics and transport sector,Vienna, Austria 2021
6. https://agro.gov.az/az
7. https://afsa.gov.az/
8. http://akia.gov.az/az/
9. http://att.gov.az/az/about/mission

**Айдан Фарман кызы АСЛАНОВА**
Бакинский Евразийский Университет, преподаватель

## ИНВЕСТИЦИИ В АГРОПЕРЕРАБАТЫВАЮЩУЮ ОТРАСЛЬ: ТЕКУЩАЯ СИТУАЦИЯ И ПРИОРИТЕТЫ

**Резюме**

Эффективное финансирование перерабатывающих процессов в агроперерабатывающем секторе и укрепление инвестиционных механизмов является одним из основных вопросов в области исследований экономики в наше время. Проблемы инвестиционной привлекательности агроперерабатывающих комплексов и оптимизации решений существующих проблем остаются актуальными на фоне мирового финансового кризиса.В статье проведен анализ создания и внедрения эффективных механизмов управления с использованием опыта развитых стран в сфере инвестиций в агроперерабатывающие направления. Обоснована важность системного подхода к процессам анализа объёма и структуры инвестиций в агроперерабатывающие направления, проведены идентификации и сравнительный анализ в направлении планирования и прогнозирования устойчивости финансового обеспечения. В целях привлечения надежных инвестиционных каналов обозначены направления подготовки и реализации реализуемых в Азербайджанской Республике стратегий развития в соответствии с требованиями времени и глобальными вызовами.

**Ключевые слова:** *инвестиции, экономика, промышленность, переработка, сервис, финансы.*

**Aydan Farman ASLANOVA**
Baku Eurasian University, teacher

**INVESTMENTS IN THE AGRO-PROCESSING SECTOR: CURRENT SITUATION AND PRIORITIES**

**Summary**

Efficient financing of processing processes in the agro-processing sector and strengthening of investment mechanisms is one of the main issues in the research level of the economy in modern times. The problems of investment attractiveness of agro-processing complexes and the optimization of solutions to existing problems remain relevant against the background of the global financial crisis. In the article, analyzes were made for the creation and implementation of effective management mechanisms, taking advantage of the experience of developed countries in the field of strengthening investment mechanisms of agro-processing complexes. The importance of a systematic approach to the processes of improving the investment efficiency of agro-processing complexes was substantiated, identifications and comparative analyzes were carried out in the direction of planning and forecasting the stability of financial provision. In order to attract reliable investment channels, the directions of preparation and implementation of the development strategies implemented in the Republic of Azerbaijan in accordance with the requirements of the time and global challenges are indicated.

**Keywords:** *investment, economy, industry, processing, service, finance.*